# mr.Poxyfix®

## Epoksi (ağac saqqızı) əsaslı, yüksək müqavimətli, kimyəvi maddələrə davamlı keramik yapışdırıcı

Məhsul kodu: 10.05.008



### Məhsul haqqında

**mr.Poxyfix®** Epoksi (ağac saqqızı) əsaslı, keramika, mərmər, qranit, anti turşu (antiasit) keramika, şüşə mozaika və şüşə kərpic kimi materialların yapışdırılmasında istifadə edilən, kimyəvi maddələrə və bakteriyalara davamlı, asan tətbiq edilən, su ilə təmizlənən hazır epoksi yapışdırıcıdır.

**TS 11140 EN 120004 - R2T** sinfinə uyğundur.
R2: Əlavə xüsusiyyətləri dəyişdirilmiş reaksiya ağac saqqızı əsaslı yapışdırıcıdır.
T: Sürüşmə xüsusiyyəti azaldılmış.

### İstifadə sahələri

- Hər cür qida istehsal təsisində
- Ət və balıq sənayesində, sallaqxanalarda
- Dərman, boya, kağız, akkumulyator və gübrə istehsalı olunan yerlərde
- Mətbəə, sənaye mətbəxləri və çamaşırxanalar, yeməkxanalarda
- Xəstəxanalardakı hər növ gigiyenik məkanlarda
- Üzgüçülük hovuzları və termal hovuzlarda
- Tullantı su və su təmizləmə təsislərində
- İntensiv piyada yol hərəkətinə məruz ticarət mərkəzləri, terminallarda və s.
- Yuxarıda sadalanan məkanlarda istifadə ediləcək keramika, mərmər, qranit, turşuya (antiasit) davamlı olan keramika, porselen keramika, şüşə mozaika və şüşə kərpic kimi materialların xarici və daxili məkanlardakı beton, suvaq, metal kimi səthlərə yapışdırılmasında istifadə edilir

### Üstünlükləri

- Kimyəvilərə aşqarlara, turşulara, yağlara, qida tullantı sularına, kimyəvi tullantı sularına davamlıdır
- Antibakterial xüsusiyyətlidir, kif, göbələk və bakteriya əmələ gəlməz
- Mexaniki davamlılıq yüksəkdir
- Donma həll olunma döngüsünə davam gətirir
- İçməli su təmasında istifadə edilir

### Texniki göstəriciləri

| mr.Poxyfix® tərkib A<br>mr.Poxyfix® tərkib B | Epoksi rəçinə<br>(ağac saqqızı)<br>Epoksi Sərtləşdirici |
|---|---|
| Təzyiqə davamlılığı | > 42 N/mm² |
| Əyilməyə davamlılığı | > 28 N/mm² |
| Qopmaya davamlılığı | > 2,60 N/mm² |
| İstiliyə davamlılığı<br>Quru şəraitdə<br>Sulu şəraitdə | -20°C +80°C<br>-20°C +50°C |
| İstifadə müddəti | ~ 45 dəq |
| Açıq şəkildə gözləmə | ~ 20 dəq |
| Piyada yol hərəkətinə açma müddəti | 7 gün |
| Rəngi | Boz |

### İstifadə təlimatı

Səth hazırlığı
Beton və suvaq kimi səthlər bütün qırıntılardan təmizlənmiş olmalıdır. Metal səthlər pasdan və yağdan təmizlənməlidir.

### Hazırlanması

mr.Poxyfix® 2 komponent halında uyğun miqdarlarda qablaşdırılmışdır. İki tərkibli homogen bir qarışıq əmələ gəlincəyə qədər 400-600 d/dəq.-lik qarışdırıcı mikser ilə ən azı 3 dəq. qarışdırılmalıdır

### Qarışdırma nisbətləri

**mr.Poxyfix® tərkibA** 5kq **Epoksi Ağac Saqqızı**
**mr.Poxyfix® tərkibB** 0,2kq **Epoksi Sərtləşdirici**

**Qeyd**: Sərtləşdirici komponent (0,2 kq) ağac saqqızı qablaşdırmanın içindədir.

## Tətbiq edilmə

mr.Poxyfix®, prinsipcə sement əsaslı keramika yapışdırıcılar kimi tətbiq edilir. Qarışıq düzəldildikdən sonra material uyğun daraqlı mala ilə yayılaraq keramiklər yapışdırılır. Kritik zəminlər və ağır yüklərin gələcəyi yerlərdə yapışdırma ediləcək sahəyə malanın düz tərəfi ilə material incə bir qat şəklində çəkilir və epoksi qarışığı əlavə edilərək daraqlı mala ilə material yayılır və keramiklər yapışdırılır. Daraqlı mala ilə material yapışdırıldıqdan sonra keramikalar sürətlə yapışdırılmalıdır, qurumağa başlayan materialın üzərinə keramika yapışdırmaq olmaz.

## Sərfiyyat

1 mm yapışdırıcı qalınlığı üçün, 1,7 kq/m$^2$-dir.

| Keramika | Daraq | Istifadə miqdarı |
|---|---|---|
| 10x10cm | 6x6x6mm | Tək tərəfli yapışdırma 4 kq/m$^2$ |
| 10x10 cm ilə 20x20 cm | 8x8x8 mm | Tək tərəfli yapışdırma 5 kq/m$^2$ Cüt tərəfli yapışdırma 6 kq/m$^2$ |
| 20x20 cm ilə 30x40 cm | 10x10x10 mm | Cüt tərəfli yapışdırma 7-8 kq/m$^2$ |

## Xüsusi xəbərdarlıqlar

mr.Poxyfix® uyğun qarışdırma mikseri ilə qarışdırılmalıdır. Qətiyyən əl ya mala ilə qarışdırılmamalıdır. Epoksi Ağac Saqqızı əsaslı məhsulların işləmə və sərtləşmə müddətləri məkan və səth istiliyinə bağlıdır. Tətbiq etmək üçün ən uyğun istilik +10$^0$C - +20$^0$C-dir.

mr.Poxyfix® qarışığına qətiyyən su və yeni material əlavə edilməməlidir.

## Alətlərinin təmizlənməsi

Tətbiq edilmədən sonra istifadə edilən alət və ləvazimatlar təmizləyizi maddə qarışığı olan isti su ilə təmizlənməlidir. mr.Poxyfix® sərtləşdikdən sonra ancaq mexaniki üsullarla səthdən təmizlənə bilər.

## Qablaşdırma

5,20 kq-lıq (A+B) dəst tənəkə

## Saxlama şərtləri

Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə, donmadan qorunaraq saxlanmalıdır.

## Saxlama müddəti

Düzgün saxlanma şəraitində, istehsal tarixindən etibarən 1 il müddətinə istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Tərkiblər dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

## Net: 5,20 kq ±2%